

# Elmar Məmmədyarovun səriştəsizliyi təpki ilə qarşılanır

*Xarici İşlər nazir Elmar Məmmədyarovun Brüsseldə keçirilən Şərq Tərəfdaşlığı proqramının 10 illiyi ilə bağlı yubiley toplantısında erməni jurnalisti ilə dialoqu müzakirə predmetinə çevrilib. XİN rəhbərinin erməni jurnalistinə "Ermənistan Qarabağı işğal etməklə nə qazanıb?", - deyə sualla müraciət etməsi birmənalı qarşılanmayıb.*

Səh.8


24 səhifə
Həftəlik qəzet

UNİKAL

№27 (1966) 18 may 2019-cu il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




# Eldar Əzizov hücuma keçir

## Söhbət qeydiyyatsız evlərin sənədləşdirilməsini arzulamayanlardan gedir

*İllərdir Azərbaycanda sənədsiz torpaq sahələrinin və evlərin dövlət reyestrinə daxil edilməsi problemi gündəmdən düşmür. Min bir əziyyətlə başa gələn evlərin tam hüquqlu sahibi olmaq və qeydiyyata düşmək sadə vətəndaşın arzusu olaraq qalır. Ölkə başçısı məsələ ilə bağlı aidiyyatı qurumlara dəfələrlə göstəriş versə də, hələ ki konkret nəticə hasil olmayıb.*

Hələ bir neçə il əvvəl Bakı Şəhər İcra Hakimiyyəti paytaxt və paytaxtətrafı ərazilərdə tikilmiş sənədləşdirilməsi mümkün hesab edilən sənədsiz evlərin sayının 700 mindən artıq olduğunu açıqlamışdı. 2011-ci ilin martında Bakı Şəhər İcra Hakimiyyətində keçirilən müşavirədə prezident rəsmi icazə olmadan tikilmiş evlərin sənədləşdirilməsi ilə bağlı hökumətə xüsusi tapşırıq verdiyini deyib: "Bakıda evlərin qeydiyyata alınması problemi var. Ancaq elə etmək lazımdır ki, bu problem həll olunarkən xoşagəlməz halların qarşısı tam şəkildə alınsın.

Səh.10

Səh.12



# Füzuli Ələkbərovdan qayıdış siqnalı

## "Söyüş siyasi mədəniyyətin deqradasiyasını göstərir"



*Ölkədə sosial, iqtisadi, eləcə də siyasi sferada müxtəlif problemlərin mövcud olduğu faktdır. Təəssüflə qeyd olunmalıdır ki, mədəni, əxlaqi məsələlərdə də ciddi problemlər yaşanmaqdadır. "Unikal" qəzetinə müsahibə verən ADP sədri Sərdar Cəlaloğlu ilə söhbətimiz də mil-li-mənəvi dəyərlər, cəmiyyətdəki mədəni-əxlaqi deqradasiya prosesi ilə bağlı oldu.*

Səh.4

## Beynəlxalq təşkilatların Qarabağla bağlı qərəzli yanaşması davam edir



*Bir neçə gün öncə Brüsseldə "Şərq Tərəfdaşlıq Proqramının" 10 illiyi ilə bağlı yubiley toplantısı keçirildi. Qeyd edək ki, Avropa İttifaqı ölkələrinin və "Şərq tərəfdaşlığı" təşəbbüsünə qoşulan ölkələrin xarici işlər nazirləri tərəfdaşlığın 10 illiyinə həsr edilmiş yekun bəyannamədə tərəfdaş ölkələrin ərazi bütövlüklərinin vurğulanmaması narahatlıq yaradıb və müzakirələrə səbəb olub.*

Səh.13

## Radikal müxalifət nümayəndələri mövqelərini dəyişirlər



*Son dövrlər radikal mövqedə olan bəzi müxalifət nümayəndələri deyəsən, tutduqları yolun yanlış olduğunu anlamağa başlayıblar. Belə ki, bu günlərdə "Meydan" TV-nin keçmiş rəhbəri Emin Milli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdən üzr istəyib.*

Səh.5